**Riyaziyyat və Mexanika İnstitutunu “Beynəlxalq əlaqələr”**

**şöbəsinin 2025-ci ili üzrə fəaliyyəti haqqında**

**H E S A B A T**

Hesabat dövründə beynəlxalq əlaqələr şöbəsi Azərbaycan Respublikası ETN Riyaziyyat və Mexanika İnstitutu elmi və elmi-təşkilat fəaliyyətə uyğun olaraq öz fəaliyyətini həyata keçirirdi.

20 – 25 may 2025-ci il tarixində “Maye və qaz mexanikası” şöbəsinin müdiri, AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor Qeylani Pənahov və şöbənin baş elmi işçi, t.e.d., dosent Eldar Abbasov Rusiya Federasiyası, Sankt-Peterburq şəhərində “Qazpromneft” Elmi-Tədqiqat Mərkəzi tərəfindən keçirilən elmi-texniki konfransda neft, qaz və qazkondensat yataqlarının işlənməsi və istismarı istiqamətində elmi-texniki innovasiyalarla əlaqədar perspektiv işlərinin müzakirəsində iştirak ediblər.

22 – 26 iyul 2025-ci il tarixində “Riyazi analiz” şöbəsinin baş elmi işçisi, f.r.-e.d. Elman İbrahimov və “Riyazi fizika tənlikləri” şöbəsinin baş elmi işçisi, f.-r.e.d. Fərman Məmmədov Türkiyənin Yıldız Texniki Universitetində keçirilən Turan - Fundamental Elmlər Simpoziumun (TURAN-25) işində məruzələrlə iştirak ediblər.

31 avqust – 05 sentyabr 2025-ci il tarixində “Riyazi analiz” şöbəsinin baş elmi işçisi, f.r.-e.d. Elman İbrahimov Batumi ş. (Gürcüstan)  keçirilən XV International Conference of the Georgian Mathematical Union adlı Beynəlxalq Konfransda iştirak edib.

Sentyabr ayının 3 – 6, 2025-ci il tarixlərində Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Riyaziyyat və Mexanika İnstitutunun təşkilatçılığı və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İnformasiya Texnologiyaları İnstitutu və Yildiz Technical University, Turkiye dəstəyi ilə XIII əsrdə yaşamış dahi Azərbaycan alimi və mütəfəkkiri Nəsrəddin Tusinin xatirəsinə həsr olunmuş “XII Riyaziyyat və Mexanikanın Müasir Problemləri” adlı Beynəlxalq elmi konfrans keçirilib. Konfransda dünyanın 20-dən artıq ölkəsini – Türkiyə, Qazaxıstan, Rusiya, Özbəkistan, ABŞ, Litva, Norvec, Marokko, Hindistan, Pakistan, Gürcüstan və s. təmsil edən tanınmış alimlər iştirak ediblər.

İnstitutun elmi əməkdaşların arasında informasiya yayılmışdı və bir sıra beynəlxalq elmi proqramlar və müsabiqələrdə iştirak etməsi üçün kömək göstərilmişdir.

Şöbə müdiri,
t.e.d., dosent  Eldar Abbasov